# İLAHI PEYĞƏMBƏRIN NÜBÜVVƏTINƏ QURANIN DƏLILLƏRI

<"xml encoding="UTF-8?>

## İLAHI PEYĞƏMBƏRIN NÜBÜVVƏTINƏ QURANIN DƏLILLƏRI

Xülasə şəkildə demək olar ki, Quran sonuncu Peyğəmbərin nübüvvətinə altı əsaslı .burhan (möhkəm dəlil) gətirmişdir

Alahın şəhadəti

Qurani- kərim altı ayədə Məhəmməd (s)- ın nübuvvətini isbat etmək üçün və onun bu iddiaya olan sədaqətini sabit etmək üçün mütəal Allahın şəhadətinə istinad etmişdir: bu altı ayədən ikisində onun nübüvvəti üçün Allahın şəhadətinə istinad edərək bəyan edir ki, onun peyğəmbərliyinin isbatı üçün Allahın şəhadəti [kifayətdir.[1

Digər dörd ayədə, bunlardan əlavə Peyğəmbər (s)- ə göstəriş verir ki, öz [nübüvvətini sabit etmək üçün bu ayələrə istinad etsin (əsaslansın).[2

Amma Mütəal Allahın onun nübüvvətinə necə şəhadət verməsi bu kitabda bəyan ediləcəkdir.[3] Xülasə şəkildə demək olar ki, Mütəal Allah müxtəlif mümkün olan .yollarla onun nübüvvətini təsdiqləmişdir

İslamdan qabaqkı Peyğəmbərlərin xəbər verməsi

Quranı- kərimin sonuncu Peyğəmbərin nübüvvətinə olan dəlili budur ki, Musa (ə) Tövratda, İsa (ə) İncildə o həzrətin gəlməsini müjdə vermişdir. Hətta bütün səmavi kitablar o Peyğəmbərin besətini və ona vəhyin nazil olmasını xalqa .çatdırmış və müjdə vermişdirlər

«وإنّه لفی زبرالاوّلین»[4]

"Onun vəsfi keçmiş kitablarda gəlmişdir"

:İmam Əli (ə) Peyğəmbri- əkrəm (s)- in besəti barəsində belə buyurur

Alah Taala Məhəmmədi (s), öz rəsulunu öz vədəsini həyata keçirmək üçün və" Peyğəmbərlik silsiləsini sona yetirmək üçün göndərdi. Bu barədə [Peyğəmbərlərdən əhd alınmışdı və onun əlamətləri də məlum idi.[5

Başqa bir rəvayətdə ibn Abbas Qütadə bu əhd- peymanın açıqlaması barəsində :Əmirəlmömінindən (ə) belə nəql etmişdirlər

Allah, qabaqkı Peyğəmbərlərdən və bizim Peyğəmbərimizdən əhd almışdır ki, o həzrətin Peyğəmbərliyə gəlməsi və onun vəsfi barəsində öz ümmətlərini məlumatlandırsınlar. Onun gəlməsini müjdə versinlər və xalqı onu təsdiq etməyə [çağırsınlar.[6

Digər çoxlu faktlarda başqa Peyğəmbərlərin o həzrətin peyğəmbərliyini müjdə .verməsindən bildirir

Hər halda, Quran baxımından o həzrətin Peyğəmbərliyinin əlamətləri digər səmavi kitablarda elə açıq- aşkar şəkildə olubdur ki, hətta qabaqkı dinlərin ümmətləri bu .Peyğəmbəri öz oğullrı kimi tanıyırmışlar

Kitab (Tövrat və İncil) verdiyimiz şəxslər onu (Muhəmmədi) öz oğullarını" [tanıdıqları kimi tanıyırlar".[7

Xatırladırıq ki, əgər Quranın digər səmavi kitablarda bu Peyğəmbərin nübüvvətinə bəşarət verilməsi və kitab əhlinin o həzrətə nisbət kamil agah olmaları iddiası barəsində, Quran nazil olan zaman ən az bir tərdid olsaydı, İslam düşmənləri bu müqəddəs dinlə müxalifət etmək üçün, şübhəsiz onu araya gətirərdilər. Bəs Quranın bu aşkar iddiası ilə heç bir müxalifətin olmaması bu aşkar və sənədli .iddianın aydın olmasına dəlalət edir

Bundan əlavə bu günkü mövcud Tövrat və İncildə də təhrif olmasıyla belə yenə də

.sonuncu Peyğəmbərə tətbiq olunan mətləblər mövcuddur

---

Nisa surəsi ayə 166, Fəth surəsi, ayə 28 – [1]

İsra surəsi, ayə 96, ənkəbut surəsi, ayə 52, Əhqaf surəsi, ayə 8, ənam surəsi, ayə 19 – [2]

.Bax: Peyğəmbərlərin peyğəmbərliyinə Allahın şəhadət verməsi bölümünə – [3]

–Şüəra surəsi, ayə 196[4]

.Nəhcülbəlağə, xütbə 1 – [5]

Bax: səh 28, hədis 3 – [6]

Məcməül- bəyan, cild 2, səh 784. Biharul- ənvar, cild 11, səh 12

Bəqərə surəsi, ayə 146 – [7]